**Kənan Şöhrət oğlu Vəkilov**
**Bakı Dövlət Universiteti, "Dünya iqtisadiyyatı" kafedrası, i.f.d.**
**E-mail: kanan.vekilov@mail.ru**
**UOT: 330.341.1; JEL: O32; D83.**

# Bilik iqtisadiyyatın inkişaf etdirilməsinin qlobal problemləri və istiqamətləri

**Xülasə**

*Tədqiqatın məqsədi - bilik iqtisadiyyatının inkişaf etdirilməsinin qlobal problemləri və istiqamətləri tətbiq olunmuşdur. Bunun üçün bilik iqtisadiyyatının inkişaf etdirilməsi problemləri araşdırılmış və onların mahiyyəti açıqlanmışdır. Müasir dövrdə qlobal kontekstdən yanaşmaqla bilik iqtisadiyyatının inkişaf proseslərinin dərinləşdirilməsi problemləri kompleks şəkildə baxılmışdır. Müxtəlif dünya ölkələrində bununla bağlı mütərəqqi təcrübənin əsas aspektləri verilmişdir. Hazırki şəraitdə Azərbaycanda bilik iqtisadiyyatının inkişaf etdirilməsinin daha perspektivli istiqamətləri açıqlanmış və bununla bağlı müəllif əsaslandırılması aparılmışdır. Tədqiqatın metodologiyası nöqteyi nəzərindən qeyd etmək olar ki, əsas etibarilə müxtəlif tədqiqatçıların əsərlərinə istinad olunmuşdur. Eyni zamanda iqtisad elmində daha çox istifadə olunan təhlil, sintez və ümumiləşdirmə kimi iqtisadi metodlardan istifadə edilmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti barədə danışarkən bunları qeyd etmək mümkündür ki, hazırki dövrdə dünyada bilik iqtisadiyyatının dərinləşdirilməsi prosesləri gedir. Bununla əlaqədar olaraq Azərbaycanda da bilik iqtisadiyyatının inkişaf etidirilməsinin təmin edilməsi və bununla bağlı səmərəli mexanizmlərin işlənilməsi vacibdir. Tədqiqatın nəticələri nöqteyi nəzərindən isə Azərbaycanda bilik iqtisadiyyatı yeni bir sahədir və onun inkişaf etidirilməsi üçün dərin araşdırmalar kifayət qədər əsaslandırmalar, o cümlədən, elmi-iqtisadi və texniki araşdırmalar vacibdir. Buna görə də tədqiqatda əldə olunam nəticələrdən bu istiqamətdə fəaliyyət strategiyalarının və mexanizmlərinin hazırlanmasında istifadə etmək mümkündür. Tədqiqatın orjinallığı və elmi yeniliyi baxımından bunları qeyd etmək olar ki, hazırki dövrdə Azərbaycanda bilik iqtisadiyyatının inkişaf etdirilməsinin qlobal problemləri və istiqamətləri üzrə yeni yanaşmaların və baxışların formalaşdırılması təmin olunmuşdur. Əsas elmi yenilik isə hazırki şəraitdə Azərbaycanda bilik iqtisadiyyatının inkişaf etdirilməsi proseslərinin sürətləndirilməsinin təmin edilməsi üçün bu istiqamətdə sistemli tədbirlərin görülməsi və bununla bağlı əsas fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsindən ibarətdir. Digər tərəfdən, ölkədə müxtəlif iqtisadiyyat sahələrində bilik iqtisadiyyatının inteqrasiyasının və onun multipklativ təsirinin nəzərə alınması şərtilə elmi-texniki yeniliklərin daha intensiv şəkildə tətbiq olunması məsələlərinin həlli istiqamətində daha səmərəli mexanizmlərin müəyyənləşdirilməsi təyin edilmişdir. Bu istiqamətlərdə bir qrup tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

***Açar sözlər:*** *Azərbaycan, bilik iqtisadiyyatı, qlobal problemlər, qlobal çağırışlar, innovasiyalar, innovasiyalı inkişaf.*

## Giriş

Müasir dünyada elm, innovasiya və yeni texnologiyalar sosial-iqtisadi inkişafda həlledici amildir. Onların köməyi ilə məhsulların, malların və xidmətlərin istehsal həcmi və çeşidi durmadan artır. Yeni nəsil texnologiyalar öz mütərəqqi üstünlüklərini artırmağa və sosial-iqtisadi inkişafın mənfi amillərinin təsirini müəyyən edilmiş həddə saxlamağa yönəlib. Bu gün dünyanın əksər ölkələri elmi-texniki fəaliyyətin nəticələrinin yaradılması, ötürülməsi və istifadəsinin davamlı iqtisadi inkişafın əsas şərtləri olduğu innovativ biliklərə əsaslanan iqtisadiyyata keçid vəzifəsini qarşılarına qoyur [1] . Müasir dövlətin iqtisadi, sosial və siyasi gücü onun iqtisadiyyatında yüksək texnologiyalardan istifadəyə əsaslanır. Ancaq məsələ innovativ texnologiyaların özündə, təsərrüfat subyektlərinin onları davamlı olaraq istehsal

etmək qabiliyyətində deyil, onları bazara çıxarmaq, tez bir zamanda ehtiyac duyduğu məhsul və xidmətlərə çevirmək qabiliyyəti, bacarığındadır. Yeni texnologiyaların kommersiyalaşdırılması mexanizminin müasir konsepsiyası ondan ibarətdir ki, texnologiyaların elmi sferadan sənaye sahəsinə yayılması yalnız innovasiya fəaliyyətinin bütün subyektlərinin, o cümlədən, alimlər, tədqiqatçılar, investorlar, sahibkarlar və dövlət orqanlarının fəal qarşılıqlı əlaqəsi və əməkdaşlığı ilə səmərəli olur. Mütərəqqi dünya təcrübəsində bununla bağlı xüsusi diqqət çəkən fəaliyyət sahələrindən biri də - bilik iqtisadiyyatının yaradılması və rəqəmsal texnologiyaların tətbiqi hesabına yeni iqtisadi artım mənbələrinin formalaşdırılmasıdır [2]. Bir çox dünya ölkələrində, xüsusilə, iqtisadi cəhətdən inkişaf etmiş dünya ölkələrində intellektual resursların və biliklərin iqtisadi-təşkilati mexanizmlərin yaradılması və bütövlükdə bilik iqtisadiyyatının formalaşdırılması prosesləri intensiv fazaya keçmişdir. Postsosializm və postsovet respublikalarında isə bu proseslər fərqli şəkildə inkişaf etməkdədir və əksər bu kimi ölkələrdə bilik iqtisadiyyatının formalaşdırılması başlanğıc səviyyəsindədir, bu hal Azərbaycan üçün də xarakterikdir. Hesab edirik ki, bilik iqtisadiyyatı kimi yüksək intellektual və texnologiyalar tutumlu sahənin məhsuldar işinin təşkili, intellektual işləmələrin istehsal proseslərinə tətbiqinin sürətləndirilməsi geniş həcmdə maliyyə resurslarının ayrılmasını və investisiyaların yatırılmasını tələb edir. Bunun üçün investorların bilik iqtisadiyyatını formalaşdıran ölkəyə böyük etimadı və inamı olmalıdır. Bu inam isə öz əksini qanunvericilik aktlarında, ölkə qanunlarında, innovatik sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı dövlət siyasətində, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün yaradılan investisiya-innovasiya mühitində, bu proseslərin intensivliyini təmin edəcək etibarlı və əlçatan maliyyə təminatı mexanizmlərində tapmalıdır [3]. Bilik iqtisadiyyatının proqnozlaşdırılan nəticələrinin reallaşdırılmasına qədər olan proseslər o qədər də qısa deyildir, bu proseslərdə istifadə olunan maliyyə resurslarının ödənmə müddətləri müəyyən vaxt tələb edir, əməliyyat və maliyyə riskləri də çoxdur, proseslərin planlaşdırılan inkişafına kifayət qədər ciddi təsir edə biləcək daxili və xarici amillər də istisna olunmur [4]. Buna görə də, bilik iqtisadiyyatının dayanıqlı inkişafı və bununla bağlı prioritetlərin reallaşdırılması məqsədilə uzunmüddətli dövr üçün nəzərdə tutulmuş yanaşmalar, o cümlədən bu proseslərdə innovatik sahibkarlığın strateji rolunun reallaşdırlmasına adekvat ola biləcək maliyyə təminatı və investisiyal mexanizmləri olmalıdır.

**Müasir şəraitdə bilik iqtisadiyyatının inkişafının əsas paradiqmaları**

Qeyd etmək lazımdır ki, dövlətimiz tərəfindən bilik iqtisadiyyatının inkişaf etdirilməsi üçün davamlı tədbirlər görülməkdədir. Eyni zamanda, İKT sferasında, rəqəmsal texnologiyaların tətbiqində, ali təhsil müəssisələrinin innovatik inkifafında aparılan davamlı tədbirlərə və dövlət siyasətinə baxmayaraq, ölkəmizdə hələ də qeyri-neft sektorunun artırımda və inkişafında bilik iqtisadiyyatnın önəmli rolu təmin olunmamışdır. Nəzərə alsaq ki, ölkə Prezidentinin 6 dekabr 2016-ci il taxili Fərmanı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”ndə ölkə iqtisadiyyatının müasir texnologiyalar əsasında inkişaf etdirilməsi, intellektual resurslara əsaslanan iqtisadiyyat sahələrinin formalaşdırılması, rəqəmsal texnologiyaların tətbiqində sıçrayışın təmin edilməsi, elm və texnolgiyalar bazarlarının inkişaf etdirilməsi, milli innovasiya sisteminin formalaşdırılmasının başa çatdırılması və işləkliyinə nail olunması üçün önəmli strateji hədəflər və vəzifələr müəyyənləşdirilmişdir [5]. Bununla bağlı hesab edirik ki, yaxın illərdə daha çox işlərin həyata keçirilməsi, ilk növbədə, qeyri-neft sektorunun fəaliyyətinin şaxələndirilməsi istiqamətində aparılan məqsədli və ünvanlı islahatlar çərçivəsində bilik iqtisadiyyatı infrastrukturunun formalaşdırılmasına diqqət xeyli artırılmalıdır. Bu strategiyada bilik iqtisadiyyatının inkişaf etdirilməsi və ümumilikdə innovativ sahibkarlığın inkişafına müsir yanaşmaların təmin olunması prioritet vəzifələr kimi

müəyyənləşdirilmişdir. Xüsusilə, universitetlərdə elmi tədqiqat işlərinin daha mütəşəkkil şəkildə təşkili məsələləri qabardılmışdır. Belə ki, təhsil sistemində innovativ texnologiyalara əsasən distant texnologiyalar, elektron texnologiyalar və ya onların müxtəlif kompleksləri daxil olmaqla yeni təhsil texnologiyaları daxildir. Təhsil və elmdə innovativ texnologiyalar getdikcə daha çox bir-birinə bağlıdır və insan təhsilinin və şəxsiyyətinin formalaşmasının sinergik yollarına sövq edir, sinergetik yanaşma isə qapalı təhsil sistemindən açıq təhsil sisteminə keçidi nəzərdə tutur [6]. Bu baxımdan universitetlərdə və elmi-tədqiqat müəssisələrində innovatik sahibkarlığın genişləndirilməsinə məqsədli yanaşmalar vacibdir. Universitetlərin və elmi-tədqiqat institutlarının sənaye ilə əlaqələri qarşılıqlı tədqiqat ekosistemini yaradır, imkanlar şəbəkəsini inkişaf etdirir və iş adamlarının yeni dalğasını təcrübə və resurslarla təmin edir. Deməli, universitetlər tərəfindən yaranan vəziyyəti nəzərə almaq faydalı olardı [7].

Elmi-tədqiqat işlərinin yüksək texnologiyalar əsaslı infrastrukturun yaradılması, bu sahədə əldə olunmuş elmi nəticələrin və ixtiraların kommersiyalaşdırılması, potensial investorların elmi tədqiqatlarının aparılması və tətbiqi proseslərinə cəlb edilməsi, dayanıqlı və motivasiyalı maliyyə mexanizmlərinin olmamasıdır [8]. Ölkədə elmi-tədqiqat proseslərinin maliyyələşdirilməsi, müxtəlif səpkili səviyyələrdə müsabiqələrin keçirilməsi, qrantların verilməsi prosesləri şəffaf deyildir və elmi tədqiqatçıların 80 %-dən çoxu bu proseslərdən kənarda qalır. Dövlət büdcəsi tərəfindən də elmi tədqiqatların maliyyələşdirilməsi cüzi səviyyədədir və ayrılan vəsaitlərin əhəmiyyətli hissəsi elmi-tədqiqatların təşkilnə və dərinləşdirilməsində yox, ilk növbədə ölkədə orta əmək haqqı səviyyəsindən xeyli aşağı olan əmək haqqının ödənilməsinə və onunla bağlı olan digər ödənişlərin həyata keçirilməsinə yönəldirlir. Universitetlərdə fəaliyyət göstərən elmi-tədqiqat mərkəzlərində alınan elmi-praktiki nəticələrin, kəşflərin və ixtiraların istehsal proseslərində sınaqdan keçirilməsi və tətbiq edilməsi işlərində texnoparklar çox mühüm funksiyaları yerinə yetirilər. Bunun üçün texnoparklarda müasir avadanlıqlar, istehsal və texnoloji infrastruktur, həmçinin mütəxəssislər vardır. Digər tərəfdən, texnoparklar rəqabətqabiliyyətli məhsulların strukturunun genişləndirilməsində, istehsalının artırılmasında və ixrac potensialının yüksəldilməsində səmərəliliyi ilə fərqlənirlər. Universitetlərin sənaye müəssisələri ilə əməkdaşlığı nəticəsində daha çox keyfiyyətli məhsulların istehesal olunması formalaşdırılır. Texnoparklar dövlət tərəfindən cəlbedici dəstək mexanizmləri ilə əhatə olunan innovatik fəaliyyət mexanizmi və müəyyən dövr üçün vergi güzəştlərinə malik fəaliyyət məkanıdır. Bu kimi iqtisadi mexanizmlər universitetlərlə sənaye subyektləri arasında əməkdaşlığın yeni səviyyəyə qaldırılmasında kifayət qədər əlverişli fəaliyyət məkanı kimi qiymətləndirilir. Bunlarla bərabər, texnoparklarda innovatik sahibkarlığın inkişaf etdirilməsi, innovasiyaların işlənməsi və tətbiq olunması üçün zəruri infrastruktur mövcuddur. Eyni zamanda, bir çox universitetlər özləri çoxfunksiyalı texnoparklar yaratmaqla yeni innovasiyaların işlənməsi və tətbiqi üçün imkan əldə etmiş olurlar. Beynəlxalq əlaqələrin genişləndirilməsində, investorların cəlb olunmasında və maraqlı sənaye subyektləri partnyorlarının sırasının genişləndirilməsində texnoparklar əhəmiyyətli funksiyalara malikdirlər.

Azərbaycanda bilik iqtisadiyyatının inkişafına imkan verən iqtisadi mexanizmlərin hazırlanması və iqtisadi vasitələrin tətbiqi hesabına elmi-tədqiqat işlərinin genişləndirilməsi, innovatik sahibkarlığın inkişaf etdirilməsi mümkündür. Bu kimi qurumlarda potensial investorların, elmi-tədqiqat təşkilatları və universitetlərlə birlikdə innovativ sahibkarlığın inkişafında daha yüksək nəticələrin əldə etmələri real görünür. Belə ki, əsas hədəflər elmi-tədqiqat təşkilatlarında və universitetlərdə əldə olunan biliklərin daha çevik şəkildə iqtisadiyyat dövriyyəsinə daxil edilməsi və yeni iqtisadi artım mənbələrinin formalaşdırılmasının təmin olunmasıdır. Bilik iqtisadiyyatının formalaşdırılmasında

universitetlərin rolu ciddi önəm kəsb edir və bu artıq özünü əyani şəkildə göstərmişdir. Elm, inovasiya və texnologiyalar sahəsində dünyada əldə olunan tarixi nailiyyətlərin, ixtira və kəşflərin əhəmiyyətli hissəsi məhz dünyanın qabaqçıl universitelərində reallaşdırılmışdır. Bu baxımdan hər bir ali təhsl müəssisəsinin bilik iqtiadiyyatının bu və ya digər istiqamətinin inkişaf etdirilməsi üzrə fəaliyyət strategiyası olmalı və buna müvafiq infastruktur yaradılmalıdır [9, s.115]. Təhsil infrastrukturunun yenilənməsi, müasir təhsil strategiyasının formalaşdırılması, xüsusilə ali təhsil müəssisələrində bilik iqisadiyyatının elementlərinin yaradılmasına üstünlüyün verilməsi, bununla bağlı elmi parkların, elmi-tədqiqat və innovasiya zonalarının, biznes-inkubatorların və son illərdə daha çox aktual olan start-up-ların məqsədli və sistemli şəkildə yaradılması istiqamətində fəaliyyət proqramının olması vacib şərtlərdəndir. Böyük ölçüdə bilik iqtisadiyyatının istitusional formalarının daha fəal şəkildə tətbiq edilməsi və yksək texnologiyalar əsaslı bilik iqtisadiyyatı infrastrukturunun yaradılması mühüm əhəmiyyət kəsb edir [10, s.82].

**Bilik iqtisadiyyatının inkişafının sürətləndirilməsində innovativ yanaşmalardan istifadənin prioritetləri**

Qeyd edək ki, hazırkı şəraitdə bilik iqtisadiyyatının inkişafının sürətləndirilməsinə innovativ yanaşmalardan istifadənin intensivləşdirilməsi bir zərurət olaraq, ortaya çıxmışdır. Belə ki, innovativ sahibkarlığın formalaşmasına ehtiyac bir sıra səbəblərdən qaynaqlanır. Hər şeydən əvvəl, texnika və texnologiyanın köhnəlməsi, yeni texnologiyanın sürətlə tətbiqinə obyektiv ehtiyac yaranır. Bu, ixtiraçıların kütləvi yaradıcılığının inkişaf etdirilməsini və yeni texnologiyanın yaradılması və mənimsənilməsi üçün lazım olan vaxtın əhəmiyyətli dərəcədə azaldılmasını tələb edir. İnnovasiya sahibkarlığının təşkili və stimullaşdırılması sahəsində xarici təcrübə göstərir ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin dövlət elmi-texniki siyasəti əlverişli innovasiya mühitinin yaradılmasına və dəstəklənməsinə yönəlmiş təşkilati və qanunvericilik tədbirləri kompleksinin həyata keçirilməsinə əsaslanır. İnnovasiya sahibkarlığının inkişafının stimullaşdırılmasının ən mühüm mexanizmləri bunlardır: innovasiya sahibkarlığının büdcə maliyyələşdirilməsinin yüksək səviyyəsi ilə ixtisaslaşmış innovativ proqramların və layihələrin işlənib hazırlanması, güzəştli kreditləşdirmə, vergitutma və elmi-tədqiqat işlərinin sığortalanması sistemlərinin işləməsi, sürətləndirilmiş amortizasiya və s. Qeyd edək ki, bir çox dünya ölkələrində özəl sektor və universitetlər innovasiya prosesində fəal iştirak edir, onların bir çoxunda elmi-tədqiqat mərkəzləri fəaliyyət göstərir, elmi məktəblə istehsalat arasında əməkdaşlıq inkişaf etdirilir, innovasiya istifadəçiləri üçün informasiya təminatı və xidmətlər səmərəli təşkil olunur. İnnovasiya sahibkarlığını sürətləndirmək üçün növbəti tədbirlər daha çox səmərə verə bilər:

- innovasiyaların kommersiyalaşdırılmasına investisiyaların cəlbediciliyi artırılmalıdır;
- təsərrüfat subyektlərinin innovasiyalara maksimum həssaslığını təmin edən şərait yaradılmalıdır (əlverişli investisiya mühitinin yaradılmasına yönəlmiş tədbirlər, o cümlədən vergi rejimi, gömrük siyasəti);
- dövlət səviyyəsində texnologiyaların vaxtaşırı modernləşdirilməsi və yenilənməsi yolu ilə rasional innovasiya dinamikasına dəstək verilməlidir;
- innovasiyaları stimullaşdırmaq məqsədilə ölkə qanunvericiliyində islahatlar aparılmalıdır (əqli mülkiyyət hüquqlarından istifadənin tənzimlənməsi üzrə);
- innovativ infrastrukturun formalaşdırılması və inkişafı üçün tədbirlər hazırlanmalı və həyata keçirilməlidir.

Eyni zamanda, texnologiyaların və innovasiyaların dünya bazarlarına fəal çıxışını, onların transferi istiqamətində strateji fəaliyyəti təmin etmək və bu sahədə beynəlxalq kooperasiyanı gücləndirmək, ölkə mütəxəssislərinin beynəlxalq elmi-texniki layihələrdə iştirakı təmin edilməlidir [11]. Qeyd edək ki, yeni innovasiyaların hazırlanması, ideyalardan işlənmə səviyyəsinə gətirib çıxarılması və tətbiqi üçün müvafiq infrastrukturun uaradılması

istiqamətində fəaliyyət proqramı olmalıdır. Belə ki: "Bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən əksək dövlətlərdə iqtisadi inkişafın əsas prioritet istiqaməti kimi innovasiya yolu seçilmişdir. İnnovasiya yönümlü iqtisadiyyat ölkədə yüksək texnologiyalı istehsalın mənimsənilməsi ilə əlaqədardır. Bu isə öz növbəsində innovasiya fəaliyyətinin mövcud vəziyyətindən asılıdır. Bunun üçün elmtutumlu texnologiyaların mənimsənilməsi, innovasiya sahibkarlığın inkişaf etdirilməsi, innovasiyanın infrastrukturunun yaradılması, bazarlarınıjn təşkili, kommersiyalaşdırılması təmin olunmalıdır" [12, s.112]. Digər tərəfdən, bilik iqtisadiyyatının iqtisadi artımda rolunun genişləndirilməsi üçün çoxfunksiyalı iqtisadi mexanizmlərdən, o cümlədən, texnoparklar, sənaye parkları, elmi-texniki parklar, yüksək texnologiyalar parkları və xüsusi iqtisadi zonalardan fəal şəkildə istifadə olunması böyük səmərə verə bilər [13, s.163].

Müasir şəraitdə ölkəmiz üçün COVİD-19 pandemiyasının mənfi nəticələrinin aradan qaldırılması vəzifəsi ən prioritet vəzifələrə çevrilir. Postpandemiya dövründə milli iqtisadiyyatın inkişafı və bir çox sosial problemlərin həllində ən mühüm strateji amillərdən biri ölkənin iqtisadi məkanında sivil müasir sahibkarlığın formalaşdırılmasıdır. Bunun üçün innovativ sahibkarlığı inkişaf etdirmək lazımdır ki, bu, ilk növbədə, təsərrüfat subyektləri - müəssisələr və fərdi sahibkarlar səviyyəsində innovativ fəaliyyətin ciddi şəkildə intensivləşdirilməsini tələb edəcəkdir. Bu onunla əlaqədardır ki, innovasiyaların birbaşa kommersiyalaşdırılması prosesi (yəni, innovasiyaların iqtisadi dövriyyəyə daxil edilməsi) iqtisadiyyatın sahibkarlıq sektorunun səlahiyyətindədir. Bu proseslər ölkəmizin milli iqtisadiyyatını elm tutumlu istehsal əsasında yenidən təşkil etməyə imkan verəcək ki, bu da texnoloji cəhətdən inkişaf etmiş ölkələrdən getdikcə geriləmə meylini neytrallaşdırmağa kömək edəcək. Ölkənin inkişafının hazırkı mərhələsində onun iqtisadi siyasətinin prioritet vəzifələri innovativ sahibkarlığı inkişaf etdirmək və bu əsasda iqtisadi artımı təmin etməkdən ibarətdir [14, s.2]. İqtisadi artım və inkişaf tempi əsasən ölkəyə kifayət qədər xarici kapitalın cəlb edilməsindən, müxtəlif innovasiya və investisiya layihələrində xarici investorların iştirakından asılıdır. Xarici kapitaldan və yerli sənayenin yüksək texnologiyalı sahələrində innovasiyalardan istifadə rəqabətqabiliyyətli iqtisadiyyatın yaradılmasına, istehsal proseslərinə müasir innovativ texnologiyaların tətbiqinə töhfə verə və ölkənin keyfiyyətcə yeni texnoloji səviyyəyə daha sürətli çıxışını təmin edə bilər [15, s.91]. Bu, eyni zamanda innovativ sahibkarlığın inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir.

**Nəticə**

Yaxın perspektivdə Azərbaycanda bilik iqtisadiyyatının inkişaf etdirilməsində qlobal problemlər kontekstində bir sıra tədbirlərin görülməsinə ehtiyac yaranmışdır: müasir şəraitdə milli innovasiya sisteminin təşkili prosesləri sürətləndirilməli, ali təhsil və elmi-tədqiqat müəssisələrində innovatik sahibkarlığın inkişafı üçün əlavə tədbirlər görülməli, bu istiqamətdə məhsuldar fəaliyyət mühiti yaradılmalıdır; milli iqtisadiyyatın strukturunda qeyri-neftqaz sektorunun rolunun gücləndirilməsində daha məhsuldar artım mənbələrindən biri olaraq, bilik iqtisadiyyatının inkişafına yanaşmalar yenilənməli, təkmilləşdirilməli və hazırkı çağırışlara dövlət dəstəri mexanizmləri tətbiq olunmalıdır; Azərbaycanda innovativ sahibkarlıq istiqamətində müvafiq addımlar atılmalı, qanunvericilik bazası gücləndirilməli və beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi təmin edilməlidir.

**Ədəbiyyat**

1. Тухтасинова, М.М., Толибов И.Ш. К проблемам активизации инновационной деятельности. Journal of Economy and Business, 2019, vol. 3-2, c.160-164.
2. Вуйменков С.А. Институциональные формы эволюции экономики знаний Дисс. канд. экон. наук., Волгоград, 2010. – 168 с.
3. Гоженко К.Н. Экономика знаний – императивная основа инновационной трансформации сферы образовательных услуг. Дисс. д-ра экон. наук. 2012, Кисловодск. – 349 с.
4. Тимина Е.И. Формирование экономики знаний как новой парадигмы общщественного развития. Дисс. канд. экон. наук. Москва, 2009. – 167 с.
5. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir, 65 s.
6. Məmmədov, Z.F, Əliyev, S.T. Rəqəmsal iqtisadiyyatin formalaşdirilmasi və inkişafi (Çin təcrübəsi) /I International Conference on Modern Trends in Digital Economy. 13-14 February, 2020, Baku, Azerbaijan. – p. 107-108.
7. İmanov, K. Biliklər və Texnologiyalar + İnvestisiyalar və Əqli mülkiyyət = Universitetlərin və Sənayenin İnsan Kapitalının Ekosistemi (ÜƏMT-nın universitet və elmitədqiqat institutları üçün əqli mülkiyyət siyasəti modelinin uyğunlaşdırılması təcrübəsindən). Bakı, 2018, 43 s.
8. Дементьева А.К. Формирование и реализация механизма коммерциализации результатов инновационной деятельности ВУЗ-а. Дисс. канд. экон. наук. 2018, Ульяновск. – 171 с.
9. Ищук Т.Л. Формирование стратегий развития высшей школы в экономике знаний. Дисс. д-ра экон. наук. 2010, Томск. – 414 с.
10. Шаракина Е.В. Рынок интеллектуальных услуг на этапе формирования экономики, основанной на знаниях. Дисс. канд. экон. наук. Орел, 2018. – 164 с.
11. Mahmudova, L.F. Strateji innovasiya proseslərinin və idarə edilməsinin səmərəlilik problemləri. Geostrategiya jurnalı, №02 (50), mart-aprel 2019, s.29-32.
12. Tağıyev A.H. İnnovasiya ( nəzəri və tətbiqi səpkidə). Bakı, "Təknur". – 2018. – 552 s.
13. Əliyev Ş.T. Xüsusi iqtisadi zonaların tətbiqi problemləri. Bakı, Azərbaycan Respublikasının Prezidentinin yanında Elmin İnkişafı Fonfu. – 2012. – 360 s.
14. Muradov Ə.C., Əmirbəyov F. Yeni sənaye inqilabı: Rəqabətqabiliyyətliyin yüksəldilməsində universitetlərin rolu. 09.12.2016. https://marja.az/53/yeni-senaye-inqilabi-reqabetqabiliyyetliyin-yukseldilmesinde-universitetlerin-rolu.
15. Атюков, И.Г. Методология оценки уровня международного сотрудничества с использованием инновационных технологий и инвестиций // Экономические науки, 2017, № 147, с. 89-94.

***Кенан Шохрат оглы Векилов***
***преподаватель кафедры «Мировая экономика»***
***Бакинского Государственного Университета.***
***E-mail:*** *kanan.vekilov@mail.ru*

***Глобальные проблемы и направления развития экономики знаний***

***Резюме***

*Цель исследования - исследованы глобальные проблемы и направления развития экономики знаний. Для этого были изучены проблемы развития экономики знаний и выявлена их сущность. Комплексно рассматриваются вопросы углубления процессов развития экономики знаний за счет современного подхода в глобальном контексте. Приведены основные аспекты передового опыта в этом отношении в разных странах мира. Выявлены наиболее перспективные направления развития экономики знаний в Азербайджане и в связи с этим сделано авторское обоснование их. Методология исследования - можно отметить, что в статье, в основном, были сделаны ссылки на работы различных исследователей. При этом использовались такие экономические методы, как анализ, синтез и обобщение, которые наиболее часто используются в экономической науке. Практическая значимость исследования*

*- можно отметить, что в настоящее время в мире идут процессы углубления экономики знаний. В связи с этим важно обеспечить развитие экономики знаний в Азербайджане и разработать эффективные механизмы в этой связи. Результаты исследования - экономика знаний является новой областью в Азербайджане и для ее развития важны углубленные исследования, включающие достаточные обоснования, а также научно-экономические и технические исследования в этой области. Поэтому при разработке стратегий и механизмов действий в этом направлении необходимо использовать результаты, полученные в научных исследованиях. Оригинальность и научная новизна исследования - в текущий период времени обеспечено формирование новых подходов и взглядов на глобальные проблемы и направления развития экономики знаний в Азербайджане. Главное научное новшество в нынешних условиях заключается в принятии системных мер для обеспечения ускорения процессов развития экономики знаний в Азербайджане в этом направлении и определения основных действий по ним. В конце статьи дана группа рекомендаций и предложений по исследуемым вопросам.*

***Ключевые слова:*** *Азербайджан, экономика знаний, глобальные проблемы, глобальные вызовы, инновации, инновационное развитие.*

***Kanan Shohrat Vakilov***
***Lecturer at the Department of World***
***Economy, Baku State University.***
***Doctor of Philosophy in Economics***
***E-mail: kanan.vekilov@mail.ru***

***Global challenges and directions of the knowledge economy***

***Summary***

*Research purpose - is to investigate global problems and directions for the development of the knowledge economy. For this, the problems of the development of the knowledge economy were studied and their essence was revealed. The issues of deepening the processes of developing the knowledge economy through a modern approach in a global context are comprehensively considered. The main aspects of best practice in this regard in different countries of the world are presented. The most promising directions for the development of the knowledge economy in Azerbaijan have been identified, and in this regard, the author's justification of them has been made. Research methodology – in the article mainly were made references to the work of various researchers. Then were used economic methods such as analysis, synthesis and generalization, which are most often used in economic science. The practical importance of a research – is that currently there are processes for deepening the knowledge economy in the world. In this regard, it is important to ensure the development of the knowledge economy in Azerbaijan and develop effective mechanisms in this regard. The results of the study - knowledge economics is a new area in Azerbaijan and for its development, in-depth research is important, including sufficient justifications, as well as scientific, economic and technical research in this area. Therefore, when developing strategies and mechanisms for action in this direction, it is necessary to use the results obtained in scientific research. Originality and scientific novelty of the research - in the current period of time, the formation of new approaches and views on global problems and directions for the development of the knowledge economy in Azerbaijan has been ensured. The main scientific innovation in the current conditions is the adoption of systemic measures to ensure the acceleration of the processes of development of the knowledge economy in Azerbaijan in this direction and the determination of the main actions on them. At the end of the article, a group of recommendations and proposals on the issues under consideration is given.*

***Keywords:*** *Azerbaijan, knowledge economy, global problems, global challenges, innovations, innovative development.*

***Elmi redaktor: i.e.d. dos. Y.Məmmədov***
***Daxil olub: 05.12.2022.***
***Çapa qəbul olunub: 12.12.2022.***